**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№4 Humanitar elmlər seriyası 2006***

# ŞƏRQŞÜNASLIQ

## QURANDAKI TƏKRARLARIN SƏBƏBLƏRİ

**N.N.MƏMMƏDOV, ŞABAN SABIT ƏBDÜL HƏMID**

***Bakı Dövlət Universiteti***

Quranda geniş bir yer tutan ləfzi təkrarlar tədqiq edildiyi zaman, onların lüzumsuz yerə zikr edilmədiyi, hər hansı bir səbəblə (və ya səbəblərlə) bağlı olaraq təkrar edildiyi ortaya çıxır. Buna görə də təkrarların mahiyyətini dərk etməkdən ötrü əsas işlərdən biri də bu təkrarların səbəblərini bilməkdən ibarətdir. Bunu nəzərə alaraq biz burada əsas səbəblər üzərində dayanmaq istəyirik.

Qeyd etmək lazımdır ki, təkrarın səbəblərinin olduqca çox olması diqqəti cəlb edən bir xüsusiyyət olaraq meydana çıxır. Hətta bu detalların saysız dərəcədə çox olduğunu qeyd etmişlər. Lakin bütün bu qayələr ümumi və xüsusi olmaq üzrə iki qismə bölünür.

Ümumi qayə təkrarın vurğu ifadə etməsidir. Əsasən, təkrarın xüsusi qayələrinin hamısında bu ümumi qayə mövcuddur. Yəni təkrar təəccüb, təzim və s. kimi anlamlar ifadə etsə də yenə bunun daxilində ümumi qayə olan vurğu mövcud olur. Bu qeyd olunanlardan sonra ləfzi təkrarların səbəblərini bu şəkildə sıralamaq mümkündür:

a) **Təqrir**

Böyük alim Zərkəşinin fikrinə görə Qurandakı təkrarların ən önəmli səbəbi təqrirdir.(1) Təkrarın ən önəmli səbəbi olan təqrir metodunu sözün lüğəti mənasından çıxış edərək,- "anladılanı və ya verilmək istənən mesajı dinləyənin zehninə yaxşıca yerləşdirmək"- şəklində tərcümə etmək olar. Zərkəşinin təbirincə desək: **"الكلام اذا تكرر تقرر"** –"Söz təkrar edildikdə yaxşıca təqrir edilir."

İnsanların anlayış və qabiliyyətləri bir-birindən fərqlidir. Uca Allah, Quranı nazil etdiyi zaman bu fərqliliyi nəzərə almışdır.

Quranda geniş bir şəkildə istifadə olunan ləfzi təkrarların əsas səbəblərindən biri olan təqrir, Qurana xas olan bir metod olaraq qəbul edilə bilər.

Psixoloqlar öyrədilən bilginin insanların zehninə yaxşıca yerləşməsi üçün, çalışma və təkrarların aparıcı metodlardan biri olduğunu qeyd etmişlər.

Uca Allah insanlara doğru yolu göstərən bu kitabında qapalı bir xüsusun qalmamasını istəmiş, buna görə də Quran açıq bir dildə - ərəb dilində göndərilmişdir. Açıq dildə göndərdiyi bu kitabda da təkrarlara önəmli yer verərək muradının daha yaxşı anlaşılmasını istəmişdir.

b) **<u>Təkid</u>**

Təkid, təkrarın ən önəmli səbəblərindən biri olaraq qəbul edilir. Lakin təkid, təkrar qədər vurğu gücünə malik deyildir. Bu xüsusiyyətinə görə təkrar, təkiddən daha təsirlidir, daha bəlağətlidir. Təkid isə, əsasən birincinin mənasını qüvvətləndirir, onun başqa bir vəzifəsi yoxdur.(2) Zərkəşi bu fikirləri ilə təkrar ilə təkid arasındakı fərqi ortaya qoyur.

Göründüyü kimi, Qurandakı ləfzi təkrarlar, ərəb dilindəki təkiddən daha qüvvətli bir xüsusiyyətə malikdir. Qeyd etmək lazımdır ki, sintaksis elmindəki təkidi-ləfzi ilə Quran üslubundakı ləfzi təkrarları müqayisə etdikdə aralarında bəzi fərqlərin olduğu meydana çıxır. Buna görə də Zəməxşəri –

**"Xeyr! (Belə yaramaz). Siz (öləndən sonra bu yaramaz əməllərinizin aqibətini) mütləq biləcəksiniz! Xeyr, xeyr! (Belə yaramaz). Siz (öləndən sonra bu yaramaz əməllərinizin aqibətini) mütləq biləcəksiniz!"** (ət-Təkasur:3-4)-ayələrinin şərhi ilə bağlı bunları yazmışdır: "Buradakı təkrar, onları düşdükləri haldan uzaqlaşdırmaqdan və onlara xəbərdarlıq etməkdən ötrü işlədilmişdir. Dördüncü ayənin əvvəlində işlənən summə ( **ثم**) ədatı, ikinci xəbərdarlığın birincidən daha təsirli, bəlağətli və daha şiddətli olduğunu göstərmişdir. Bu, nəsihət verilən bir şəxsə - **"أقول لك ثم أقول لك لا تفعل هذا"** – "Sənə deyirəm, diqqət et sənə deyirəm, bunu eləmə." – deməyə bənzəyir. Bu ayələrdə əsas anladılmaq istənən məna belə ifadə edilə bilər: Siz Allahın hüzurunda etdiklərinizin hesabını vermə sıxıntısıyla qarşı-qarşıya gəldiyiniz zaman, səhvlərinizi anlayacaqsınız. Əslində bu xəbərdarlıq sizə bir öyüd və halınıza acımadır.(3)

Zəməxşərinin qeyd etdiyi kimi, ikinci xəbərdarlıq, birincidən daha təsirlidir. Psixoloji olaraq da hər hansı şəxsə söylənən bir söz, ikinci dəfə (və ya daha artıq) təkrar edilirsə, həmin şəxsin diqqətinə səbəb olur. İnsanın daxili aləmini və ruhi özəlliklərini çox yaxşı bilən Uca Allah, göndərdiyi kitabda bu xüsusiyyətləri nəzərə alaraq ona anlayacağı dildə xitab etmişdir.

Təkrarın təkid ifadə etməsi bir çox alimlər tərəfindən qəbul edilmişdir.

c) **<u>Tənbih</u>**

Qurandakı ləfzi təkrarların bir qismi tənbih mənası daşıyır. Tənbih ( **تنبيه**) kəlməsi "bir şəxsi yuxusundan və daxilindəki qəflətdən oyatmaq, bir şeyi bildirmək və diqqəti cəlb etmək" kimi mənaları bildirir.

Quranın müxtəlif ayələrində dəfələrlə işlədilən tənbih ədatları, insanların diqqətlərini bir yerə toplamağa xidmət edir. Quranda ya ( **يا**) ədatı təxminən üç yüz əlli (350) dəfə təkrar edilmişdir. Bu səslənmələr (nidalar),

insanları oyatmağa yönəlmiş xitablar olaraq qəbul edilmişdir. Mövzunu aydınlaşdırmaq üçün örnək olaraq ləfzi bir təkrar üzərində dura bilərik.

"Mumin" (Ğafir) surəsində (ayə: 28-45) Firon ailəsinə mənsub olub imanını gizlədən bir mömin şəxsdən söhbət edilməkdədir. Bu şəxs, qövmünü hidayətə və özünə tabe olmağa çağırır. O, qövmünə müraciət edərkən "يا قوم" – "Ey qövmüm!" ifadəsini təkrarən işlətməkdədir. Mömin olan bu adamın millətinə xitab edərkən həmin ifadədən istifadə etməsi və onu altı dəfə təkrarlaması çox önəmlidir.

Bu adamın, sözünü qəbul etdirmək və mömin olduğunu gizlətmək üçün belə söyləməsi bildirilmişdir.(4) Çünki "يا قوم" ifadəsi, özünün onlardan olduğunu bildirmək mənasına gəlir. Bu şəkildə bir ifadə onun sözünü daha təsirli etməyə kömək edir. Qeyd etmək lazımdır ki, peyğəmbərlər (ə.) də camaata xitab etdikləri zaman "يا قوم" ifadəsindən istifadə etmişlər. Bu üsul, millətini özündən kənar hesab etməmək və qövmünü özünə aid etmək üçün ən önəmli və psixoloji bir metoddur. Həmin ifadənin bəzən ard-arda, bəzən də fərqli fasilələrlə təkrarlanması isə vurğunu artırmağa və aradakı milli bağı daha da qüvvətləndirməyə xidmət edir.

Tənbih prinsipini, Quranda yer alan ləfzi təkrarların əsas səbəbi kimi də hesab etmək mümkündür. Bir sözü bircə dəfə eşitməklə oyanmayan kimsələri, Uca Allah eyni sözü təkrar etməklə oyandırmağa çalışır. Bu cür təkrarlar Quranda kifayət qədərdir. "Rəhman" və "Mursilat" surələrindəki təkparlar dediklərimizə tutarlı misal ola bilər.

d) **<u>Tətriyə</u>** (təzələmə, yeniləmə)

Təfsir alimləri, təkrarların səbəblərindən biri olan tatriya (تطرية) məfhumu haqqında belə demişlər. Bir fikir uzadıldığı və əvvəl xatırlanan sözün unudulmasından qorxulduğu zaman, əvvəlki söz təkrar edilir. Bu təkrardan məqsəd, birinci olaraq zikr edilən kəlamı təzələmək və yeniləməkdir.

**"Sonra (bil ki,) Rəbbin cahillikləri üzündən pis iş görən (Allaha şərik qoşan), ondan sonra tövbə edib özlərini islah edən kimsələri (əfv edər), Həqiqətən, Rəbbin tövbədən sonra (bəndələrini) bağışlayan və rəhm edəndir!"** (ən-Nəhl:119)– ayəsindəki إن ربك – tərkibi buna örnək göstərilə bilər. Bu ayənin əvvəlində إن ربك ifadəsi mövcud olduğu halda, ikinci dəfə təkrar edilmişdir.

Alimlərin ləfzi təkrarlar haqqındakı bu açıqlamaları özünü doğrultmaqdadır. Belə ki, bu cür təkrarlar, sözə aydınlıq gətirməklə yanaşı, ayədə anladılmaq istənən mənanı da ayrıca möhkəmləndirir.

Adı çəkilmiş ayə diqqətlə araşdırdıqda, Allahın nə qədər əfvedici olduğu meydana çıxır. Uca Allah, özünün ən böyük əfvedici olduğunu, yenə də özü təkidlə bildirir. Bu ayədəki غفور،لام،ان kimi ifadələr, təkid mənası daşıyır. Bunların hamısı da Allahın əfvinin nə qədər geniş olduğunu

göstərməkdədir.

Ayənin daxili bir ahəngə və harmoniyaya malik olması da diqqətəlayiq bir məsələdir. Tərkibində ləfzi təkrarların olduğu bu cür ayələr daha rahat oxunur və bildirmək istədiyi məna, insanın zehninə daha asan yerləşir. "Ən-Nəhl" surəsinin 110-cu ayəsində də bu cür təkrara rast gəlmək mümkündür.

e) **Təzim**

Lüğəti mənası "böyütmək" olan təzim ( تعظيم) kəlməsi, Qurandakı bəzi ləfzi təkrarların böyüdüldüyünü və böyüdülməyə layiq olduğunu bildirmək üçün işlədilmişdir. Təkrar edilən bu sözlərin böyüklüyünü bildirmək üçün Qurana müraciət edilməlidir. Məsələn, "əl-Haqqə" surəsinin 1-3-cü ayələrinin mənasında təzimin olduğu bildirilmişdir.

**"Haqq olan qiyamət! Nədir qiyamət?! Sən nə bilirsən ki, nədir qiyamət?!"** (əl-Haqqə:1-3)

Misal gətirilən bu ayələrdə təzim mənası daşıyan önəmli ünsürlərdən biri də təkrar edilən "haqqə" kəlməsidir. Bu söz üç ayədə ard-arda təkrar edilməklə qiyamətin şiddətli olması vurğulanmışdır. Bu ayələr, ləfz baxımından şiddətli bir vurğu ehtiva etməklə bərabər, məna etibarı ilə də gerçəkləşəcək o zamanın dəhşətini göz önünə gətirməkdədir. O gündə insanlar hesab verəcək, etdikləri yaxşılığın və pisliyin əvəzini görəcəklər. Həmin gündə bütün işlərin həqiqəti tam olaraq ortaya çıxacaqdır.

Haqqə kəlməsi, ikinci dəfə təkrar edilməklə qiyamətin əzəməti və qorxulu olması ortaya çıxır. Bu kəlmə, üçüncü dəfə təkrar edilməklə o günün şiddətini Peyğəmbərin (s.) də belə bilməyəcəyi vurğulanır (5). Göründüyü kimi Quran, özünəməxsus üslubu ilə bəzi sözləri təkrar edərək onları daha da qüvvətləndirir və mövzunu insanların beyninə yaxşıca yerləşdirir.

f) **Təhvil**

Qurandakı ləfzi təkrarların bir qismi, təhvil mənası ifadə etmək üçün işlədilmişdir. "Qorxutma" mənasını verən təhvil yolu ilə Uca Allah insanları qiyamət gününə və axirət əzabına hazır olmağa dəvət edir. Ancaq bu qorxu psixoloji baxımdan zərərli olmayıb, insanın aqibətini, düşünməsini tələb edən və sonda özünə əbədi qurtuluşu vəd edən faydalı bir qorxudur. Bununla bağlı "Qariə" surəsinə nəzər salaq:

**"Ürəkləri dəhşətə salan qiyamət! Nədir qiyamət?! Nə bilirsən ki, nədir qiyamət?!"** (əl-Qariə:1-3)

Alimlərin rəyinə görə "قارعة" kəlməsi, qiyamətin adlarından birini bildirir. Surə bütövlükdə oxunduğu zaman məlum olur ki, qiyamət doğrudan da qorxulu bir mənzərədir. Burada Uca Allah, qiyamətin qopmasının şiddətini qariə kəlməsini üç dəfə təkrar edərək vurğulamışdır. Bu təkrar eyni zamanda qorxunu artırmaqdadır.

g) **Təəccüb**

Qurandakı təkrarların səbəblərindən biri də təəccüb hesab olunur. Buna misal olaraq "əl-Müddəssir" surəsinin 18-20-ci ayələri göstərilir:

**"O, (Quran barəsində) fikirləşdi və (orada deyilənləri öz ürəyində) ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi?! (peyğəmbərə sehrbaz dedi). Bir də ölüm olsun ona! necə ölçdü-biçdi?!**" (əl-Müddəssir:18-20) Bu ayələrdə **"قدر"** – "ölçdü-biçdi" feli üç, **"قتل كيف قدر"** – "Ölüm olsun ona! Necə də ölçdü-biçdi?!" – cümləsi isə bir-birinin ardınca iki dəfə təkrar edilmişdir. Bu təkrarlarla, Qurana inamsızlıqda inad edən Vəlid ibn Muğirənin vəziyyəti təsvir olunur. Allah təala, onun halını bir təəccüblə ifadə etməkdədir.

Buradakı təəccüb belə anlaşılır:

**a)** Qüreyş, Qurana sehr deməkdən başqa bir yol seçə bilmirdi. Vəlid də eyni şəkildə onların fikirlərinə qatılmış və Quranın ancaq bir sehr ola biləcəyini iddia etmişdi. Vəlidin bununla bağlı Qüreyşin düşüncəsinə uyğun fikir irəli sürməsi ayələrdə bir təəccüb olaraq qəbul edilmişdir.

**b)** Digər bir tərəfdən Vəlid, Qüreyşin xoşuna gələcək fikir söyləmiş, bununla yaltaqlığını ortaya qoymuş və təkrarən onların gözünə girmə fürsətini əldə etmişdir. Ancaq bu fikirlərin onu bəladan qurtara bilməyəcəyi, nə qədər yaltaqlıq edirsə-etsin mütləq cəzaya çatacağı bildirilmişdir.

**c)** Bu sözlərin ayrıca, Qüreyş qəbiləsinin Vəlidin düşüncə və təqdirini bəyənmələri ilə, onun sözünü böyük tutmalarıyla bağlı olaraq təkrarlandığı ifadə edilmişdir.

Ayələrdəki bu ifadələr, eyni zamanda **"قتله الله ما أشجعه"** "Allah onu öldürsün! Necə də şücaətlidir?!"- ifadəsinə bənzəməkdədir.(6) Bu cümlədə bir tərəfdən cəsurluq öyüldüyü halda, digər tərəfdən cəsurluq göstərən şəxsə qarğış edilir.

Göstərilən örnəklərdən və verilən açıqlamalardan məlum olur ki, Qurandakı ləfzi təkrarlardan bəziləri təəccüb üçün işlədilmişdir. Edilən işin şaşqınlığa səbəb olacaq və heyrət ediləcək bir iş olduğu təəccüblə ifadə edilir.

h) **<u>Bağlılıq</u>**

Ləfzi təkrarların səbəblərindən biri də təkrar edilən sözün aid olduğu ifadələrinin mənalarının müxtəlif olmasıdır.

Quranda bunun ən açıq örnəyi "ər-Rəhman" surəsində görünür. Bu surədə **"فبأي ءالاء ربكما تكذبان"** ayəsi otuz bir (31) dəfə təkrar edilmişdir. Təkrar edilən bu ayələrdən hər biri, özündən əvvəl gələn ayə ilə (və ya ayələrlə) bağlı olaraq gətirilmişdir. Buna görə də üç dəfədən artıq təkrar edilmişdir. Əgər bu surədə təkrar edilən ayələrin hamısı eyni şeyə aid olsaydı, üç dəfədən artıq xatırlanmazdı. Çünki təkid, üç dəfədən artıq olmur (7). Quranda bu cür təkrarlara olduqca çox rast gəlmək mümkündür.

Quran, istifadə etdiyi bəzi sözləri təkrar edərək onları daha anlaşıqlı vəziyyətə gətirmiş və sözlərə yüklənmiş mənanı insanların zehninə qüvvətli

bir şəkildə yerləşdirmişdir. Bu baxımdan, sözlərin təkrar edilməsi, insanların hər cəhətdən maariflənməsini və ilahi buyruqların onların mənliyinə yerləşdirilməsini təmin etmişdir.

Qurandakı ləfzi təkrarların səbəb və qayələrinin tədqiqini tamamlamazdan öncə müasir dilçilərin bu mövzu ilə bağlı görüşlərinə nəzər salmağın faydalı ola biləcəyini düşünürük. Onlar mövzunu tədqiq edərkən belə nəticəyə gəlmişlər: Əgər Quran, hal-hazırkı üslubundan başqa bir üslub seçmək istəsəydi, nəzərdə tutulan mənanı verə biləcək başqa sözlər işlədə bilər, surələri digər nəzmlər şəklində verə bilər, ahəngdarlıq və harmoniyanı başqa bir vəzndə çatdıra bilərdi.

Həmin alimlər qrupuna daxil olan Əbdülkərim Xətib eyni sözün təkrarlanma səbəbinin bir məqsədə, plana (tədbirə və s.) yönəldiyini ifadə etmiş və bunları üç bölümdə toplamışdır.

1. Eyni sözün təkrarlanmasının səbəbi, duyğuları hərəkətə gətirmək, söylənənləri dərk edərək duymaq və onları hafizəyə yerləşdirmək üçün bir üsuldur.

2. Bunlar, Quranın hamıya məlum olan yüksək nizamını, gözəlliyini və səslənmə harmoniyasını qorumaq və onun möcüzə olduğunu göstərən açıq dəlillərdir.

3. Qurandakı təkrarlar, islami dəvətin əsas hədəflərindən birinə xidmət etməkdədir. Bu, insanların qəlblərini haqqa bağlamaqdır. Təkrarın başqa bir hədəfi də, təkrar edilən ifadələrin daşıdığı fikrin köklərini dərinlərə aparmaq, onları insanın mənliyinə yerləşdirmək, qəlbində daima təkrar edilən bir hadisə halına gətirməkdir.

Bu gün bir sıra insanların dəvət üslubları da bu metoda bənzəməkdədir. Fikirləri mənimsətmək, bir görüşü və ya məzhəbi öyrətmək üçün təkrarın böyük önəmi hiss olunur. Hər hansı bir dövlət bir siyasət yeridərkən bu üslubdan istifadə edir. Həmin dövlət səhər-axşam davamlı olaraq fikirlərini açıqlamaqda və o fikirləri onlarca, yüzlərcə dəfə təkrarlamaqda davam edir.

Qurandakı təkrarlara gəlincə, bunlar Quranın ecazını göstərən önəmli ünsürlərdən biridir. Bu ilahi kitabdakı təkrarlar doğruluğa və haqqa çağırış üçün işləndiyi üçün öz təsirini daha çox hiss etdirir.

## ƏDƏBİYYAT


1. الزركشي. البرهان في علوم القران. م.III ص ١٣
2. الزركشي. البرهان في علوم القران. م.III ص ١٥
3. الزمخشري. الكشاف.م VI.ص.٢٨١
4. السيوطى الاتقان م II.ص. ٨٤٩
5. الزمخشري. الكشاف.م VI.ص.١٤٩
6. الزمخشري. الكشاف.م VI.ص.١٨٣
7. السيوطى الاتقان م II.ص. ٨٥٠

**ПРИЧИНА ПОВТОРОВ В КОРАНЕ**

**Н.Н.МАМЕДОВ, Ш.С.АБДУЛ ГАМИД**

**РЕЗЮМЕ**

Статья посвящена одному из ведущих стилей Корана – стилю повторов и причинам повторов. Автор отмечает, что существуют различные причины использования повторов. Эти причины делятся на общие и специальные. Общей целью повтора является выражение ударения. Что касается специальных, то автор сообщает, что их целью является утверждение, уверение (подтверждение), привлечение внимания, обновление, возвеличивание, устрашение и удивление. Автор отмечает, что чаще всего словесные повторы присутствуют в суре « Ар- Рахман».

**THE REASON OF REPETITIONS IN THE KORAN**

**N.N.MAMEDOV, Sh.S.ABDUL HAMID**

**SUMMARY**

The article is dedicated to one of the leading styles of the Koran - the style of repetitions and the reasons of repetitions. The author marks, that there are various reasons of the use of repetitions. These reasons are divided into the general and special. An overall aim of repetition is the expression of thestress. As to special ones the author informs that their purpose is the statement, an assurance (confirmation), attraction of attention, updating, exaltation, intimidation and surprise. The author marks that more often verb repetitions are present in sura of «Ar-Rahman».